# Azərbaycanın multikulturalist ənənəli dövlət siyasəti beynəlxalq münasibətlər sistemində

## (Azərbaycanda və xaricdə keçirilən simpozium, forum, konfrans materialları əsasında)

**(əvvəli 22 və 23 iyun tarixli saylarımızda)**

Prezident ilk əvvəl müasir dövrdə dünya xalqlarını və dövlətlərini lərzəyə salan terror kabusundan danışdı. O, öz çıxışında xüsusi vurğuladı ki, bu dəhşətli terror hadisəsi bir daha göstərir ki, beynəlxalq ictimaiyyət bu bəla ilə mübarizə aparmaq üçün səylərini birləşdirməlidir. Dünyanın heç bir ölkəsi bu cür hücumlara məruz qalmayacağı barədə yüz faiz zəmanət verilə bilməz. Buna görə də beynəlxalq ictimaiyyətin birgə səyləri bizə bu bəla ilə mübarizə aparmağa kömək edə bilər.

İlham Əliyev müasir terrorizmin beynəlxalq mövqeyindən danışarkən bu bəlanı doğuran bəzi siyasi-ideoloji cəhətlərinə də diqqət yetirmişdir.

Məlum həqiqətdir ki, müasir terrorizmin bir spesifik xüsusiyyəti ondan ibarətdir ki, bu bəla bir çox hallarda eyni milli-etnik və dini mənşəli xalqlar və dövlətlər arasında da baş verir və ideoloji-siyasi baxımdan qarşısının alınması da müşkül işə çevrilir. Bu daha təhlükəli mövqedir: daha sonra, Azərbaycan Prezidenti Beynəlxalq təşkilatları, xüsusi ilə də onun ölkəsinin UNESCO ilə yaratdığı əlaqələrdən danışmışdır. O demişdir: "Azərbaycan UNESCO-nun fəal üzvüdür. 23 ildən artıqdır, demək olar ki, müstəqilliyini bərpa etdikdən dərhal sonra, — Azərbaycan UNESCO-nun üzvü olmuşdur.

Azərbaycan UNESCO-nun fəal üzvüdür. 23 ildən artıqdır, — demək olar ki, müstəqilliyini bərpa etdikdən dərhal sonra, — Azərbaycan UNESCO-nun üzvü olmuşdur və bəşəri dəyərlərin təşviqində öz rolunu oynamaqdadır. Azərbaycan, demək olar ki, UNESCO-nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzalamış və ratifikasiya etmişdir. 2003-cü ildə Azərbaycan ilə UNESCO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmışdır. Bu da Azərbaycana UNESCO donorlarından birinə çevrilmək imkanı vermişdir. Bu, ən zəif inkişaf etmiş ölkələr qarşısında bizim öhdəliyimizdir. Müstəqillik dövrünün əvvəlində Azərbaycan özü yoxsulluq, siyasi böhran, işğal və iqtisadi tənəzzüllə üzləşmişdir və o zaman biz beynəlxalq yardım alırdıq. İndi isə bu yaxşılığın əvəzini ödəmək və dünyanın inkişaf məramına töhfə vermək növbəsi bizimdir. Tamamilə əminəm ki, UNESCO-nun təhsil, mədəniyyət və əlbəttə, elm kimi fəaliyyət sahələri bəşəriyyətin inkişafı üçün əsas istiqamətlərdir.

Bu sahələrin inkişafı dünyamızı daha da təhlükəsiz edəcək".

Azərbaycan Prezidenti millətlər, dövlətlər, dinlər, mədəniyyət və sivilizasiyalar arasındakı dialoqun, qarşılıqlı əməkdaşlığın, tarixi tolerantlığın və multikulturalizmin beynəlxalq aləmdə təbliğ olunmasını ön plana çəkərək dünya xalqlarını bu istiqamətdə fəaliyyətə çağırmışdır. Bu istiqamətdə aparılan təbliğat və əməli işi ölkə Prezidenti dəyərləndirərək demişdir: "Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi". Lakin, dünyanın qeyd etdiyimiz dövlətlərində beynəlxalq sülhün təmin olunmasında, mədəniyyət, sivilizasiyalar və dinlərarası dialoqun, tolerantlığın və multikulturalizmin dövlət siyasəti formasına çevrildiyi bir vaxtda, bu ümumbəşəri proseslər müasir dövrdə daha geniş və təhlükəli təxribatçı-separatçı və ideoloji təxribatçılar tərəfindən ciddi maneələrlə rastlaşır.

XX-XXI əsrlərdə baş qaldıran və təhlükəli mövqe sərgiləyən terrorizmdir.

Azərbaycan Prezidenti İlham Əliyev, terrorizm və onun ümumbəşər təhlükəsindən də forumda xüsusi bəhs etmişdir: "Beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi Təhlükəsizlik Şurasında sədrlik etdiyimiz iki il ərzində biz diqqəti iki vacib məsələyə yönəltdik. Bunlar beynəlxalq terrorizmə qarşı mübarizə və mədəniyyətlərarası dialoqdur".

Bəşər sivilizasiyasına, xalqlarına, dini-etiqad formalarına və onların məsləkdaşlarına və daşıyıcılarına qarşı çevrilən terrorizm bəlasının çevikliyindən və onun xalqımıza, maddi-mənəvi dəyərlərimizə, tarixi abidələrimizə qarşı törətdiyi bəlalardan bir qədər bəhs edək.

Azərbaycan Prezidenti Fransa Forumunda da bu haqda xüsusi bəhs etmişdir. Azərbaycana, onun ərazi toxunulmazlığına qarşı, əhalisinə qarşı açıq təcavüzkarlıq mövqeyi tutan erməni millətçiləri terrorizmin saysız-hesabsız formalarından istifadə etmişdir. Bu düşmənçilik aktı zaman-zaman rus-türk, rus-İran tarixi savaşları zamanı ölkəmizin ən səfalı guşələrində yerləşdirilən ermənilər tərəfindən separatizm, soyqırımı və terror yolu ilə həyata keçirilmişdir.

Ermənilərin istifadə etdikləri bu təcavüzkarlıq üsullarının uzun tarixi keçmişi olmuşdur. Bu danılmaz və təkzibolunmaz təcavüzkarlıq aktlarının tədqiqi xüsusi araşdırma tələb etdiyindən biz burada bunlar haqqında daha ətraflı bəhs etmək fikrində deyilik, bu düşmənçilik aktının diqqət cəlb edən cəhətlərini xatırlayıb yada salmağı lazım bilirik.

19 iyun 1920-ci ildə erməni caniləri Aram Yergenyan və Misak Qriqoryan tərəfindən Azərbaycan Demokratik Cümhuriyyətinin başçısı Fətəli xan Xoyski Tiflisdə qətlə yetirilmiş, cümhuriyyətin o zamanki ədliyyə və daxili işlər naziri Xəlil bəy Xasməmmədov ağır yaralanmışlar.

Daha sonra, 1918-ci ilin qanlı-qadalı günlərində erməni təcavüzkarları və terroristləri islamın yeni meydana çıxdığı və yayıldığı bir vaxta – 743-cü ildə inşa olunan, Şamaxı cümə məscidinə silahsız və əliyalın yerli əhalini doldurmuş və məscidə od vurmuşlar.

Həmin erməni cəlladları, Azərbaycan milyoneri Musa Nağıyevin 1908-1913-cü illərdə polşalı memar İosif Plosko tərəfindən oğlu İsmayılın xatirəsinə inşa etdirdiyi və bəşər memarlığı sənətinin incisinə çevrilən "İsmailiyyə" binasını od vurub yandırmışlar.

Tarix nə dünən, nə bu gün, nə də heç bir zaman ermənilər tərəfindən törədilən Qubadakı kütləvi məzarlıqları unutmayacaqdır.

Uydurma genosid və ərazi iddiaları ilə çıxış edən ermənilər türk xalqının tarixi şəxsiyyətlərinə qarşı da amansız terror aktları törətmək yolu seçmişlər.

Yaxşı olar buna aid də bir-iki tarixi faktı oxucuların diqqətinə çatdıraq. Vaxtilə Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri olmuş Turqut Ər qeyd etmişdir: "15 mart 1921-ci ildə o zamanki ictimai-siyasi xadim və daxili işlər naziri Mehmed Tələt Paşa erməni terroristi Teheryan tərəfindən qətlə yetirilmişdir; 21 iyul 1922-ci ildə ölkənin hərbi xadimi, "gənc türklər hərəkatının" təşkilatçılarından biri olan Əhməd Camal Paşanı da erməni terroristləri Serqo Vartanyan və Kamakin Lalayan qətlə yetirmişlər; və nəhayət, 4 avqust 1922-ci ildə XX əsrin böyük hərbi-siyasi xadimi və sərkərdəsi Ənvər Paşa da erməni terrorunun qurbanı olmuşdur".

Türk diplomatının erməni terrorizmi haqqında dediklərinə sübut 1975-ci ildə Beyrutda Agop Agopyan tərəfindən yaradılan və dünyanın müxtəlif ərazilərində mərkəzləri olan "ASALA"nın türk xalqına, onun diplomatlarına və ictimai-siyasi xadimlərinə qarşı tətbiq etdikləri terrorizm aktını əlavə etsək, onun nə qədər dəhşətli mənzərə yaratdığının da şahidi oluruq.

Bir sözlə, azərbaycanlılara və türklərə qarşı dünyanın qərbində və şərqində ermənipərəst dövlətlərdə formalaşan və həyata keçirilən terrorizm aktı bununla da məhdudlaşmır. Bunu biz yox, tarixin təkzibolunmaz faktları deyir və təsdiqləyir. Bunu 1885-ci ildə yaradılan "Armenakan" partiyası, 1887-ci ildə yaradılan "Hncak" partiyası, 1890-cı ildə yaradılan "Daşnaksütyun" partiyası, 1975-ci ildə Beyrutda yaradılan və qərargahı Dəməşqdə yerləşən ("ASALA") təşkilatı həyata keçirmiş və onların proqramlarında "Türkü... hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" - yazılıb.

Humanizm və insan ləyaqətindən çox-çox uzaqda olan bu əməllər əsrlərdən bəri erməni cəlladlarının türkçülüyə və azərbaycançılığa qarşı apardığı terrorçuluq əməlinin ana xəttini təşkil edir.

Ermənilər bütün bunlara bu gün açıq təcavüzkarlıq əməlini və ərazi iddialarını da əlavə etmişlər.

Bir sözlə, bir əsrdən artıqdır ki, erməni cəlladları Türkiyəyə və Azərbaycana qarşı ərazi iddialarından və terrorizm aktını həyata keçirməkdən əl çəkmir və açıq təcavüzkarlıq əməllərini həyata keçirirlər.

Bütün bunlar təəssüflər olsun ki, dünya xalqlarının gözü qarşısında baş verir. Erməni faşizminin və vandalizminin həddi bunlarla da məhdudlaşmır.

Bugünkü erməni terrorizmin ən dəhşətli cəhətlərindən biri də ondan ibarətdir ki, onlar bütün ümumbəşəri və insani hissləri itirərək, bəşər sivilizasiyasının ən dəyərli nümunələrindən sayılan, analoqları təkcə bu gün Tanzaniyada, Keniyada, Fransada olan və 1-1,5 milyon tarixə malik olan Azıx mağarasına qarşı da təhqiramiz əməllər törətmişlər.

Bu da xalqımıza qarşı erməni soyqırımıdır, erməni genosididir. Belə aktual məsələləri Fransa forumunda diqqətə çatdıran Azərbaycan Prezidenti demişdir: "Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmışdır. 750 min nəfər isə öz ölkəmizdə məcburi köçkünə çevrilmişdir. Biz humanitar fəlakətlə üzləşdik".

Təbiidir ki, bütün bunlar erməni təcavüzkarlarının xalqımıza qarşı görünməmiş vəhşiliklərlə müşayiət olunan soyqırımının xülasəsidir.

Bu haqda ölkə başçısı dəfələrlə dünya ictimaiyyətini məlumatlandırmışdır. Lakin bütün beynəlxalq təşkilatların ədalətli qərarlarına baxmayaraq, erməni terroru, erməni separatizmi və erməni təcavüzkarlığı davam etməkdədir. Dünyanın bir çox böyük dövlətləri bu ədalətsizliyə öz mövqeyini bildirməkdən çəkinir.

Forumda Azərbaycan Prezidenti dünya xalqlarını böyük çətinliklər qarşısında qoyan və bu çətinliklərkən necə yaxa qurtarmağın yollarından da xüsusi bəhs etmişdir. O, eyni zamanda bu tarixi şəraitdə öz ölkəsinin və bir sıra Avropa dövlətlərinin qarşılaşdığı problemlərdən də bəhs etmişdir.

Prezident demişdir: "Biz o zaman iqtisadi cəhətdən o qədər də inkişaf etməmişdik, çox kasıb ölkə idik. Bu gün televiziyada Avropanın üzləşdiyi miqrasiya böhranı ilə bağlı reportajları izləyərkən əlbəttə ki, biz evlərini tərk etmək məcburiyyətində qalan insanların ağrısını başa düşürük. Eyni zamanda, bu prosesin Avropada yaşayanlar üçün çətinliklər törətdiyini anlayırıq". Bu elə bir tarixi dövr idi ki, dünyaya meydan oxuyan, qüdrətli mövqeyə malik olan Sovetlər Birliyi özünü siyasi süqutu dərəcəsinə çatmışdı.

Bir sözlə, dünənə qədər Sovetlər Birliyinin dağılması reallığına inanmayan, onu mif hesab edənlər, bu mifin artıq gerçəkliyə çevrilməsindən söz-söhbət salırdılar.

Nəhayət ki, sovetlər ittifaqı dağıldı. Onun əvəzinə yeni-yeni suveren dövlətlər yaranmağa başladı. Belə dövlətlərdən biri də, Azərbaycan oldu. Elə bu zamandan da ölkəmiz ciddi təhlükələrlə qarşılaşdı.

Bu təhlükə ilk əvvəl hələ 1988-ci ildən başladı. Ermənistan ölkəmizə qarşı açıq işğalçılıq siyasətinə əl atdı. Suveren dövlətimizə qarşı bütün ərazi boyu seperatçılıq aktları daha da böyük çətinliklər yaratdı.

Beyəlxalq Paris forumunda çıxış edən Azərbaycan Prezidenti ölkəmiz qarşısındakı yaranan ən böyük təhlükənin erməni işğalçılığı olduğunu xüsusi vurğulamışdır.

Bu dövrkü siyasi, ideoloji və hərbi situasiyanı dəyərləndirən İlham Əliyev demişdir: "Eyni zamanda 1992 ,1993-cü illəri xatırlayırıq.

Bu illər ərzində biz Azərbaycanda bir milyona yaxın insanı yerləşdirməli idik. O vaxtlar Azərbaycan əhalisi təxminən səkkiz milyondan bir az artıq idi.

Beləliklə, bu, dünya miqyasında adambaşına düşən qaçqın və məcburi köçkünlərin cəmiyyətimizə inteqrasiyası üçün əlimizdən gələni etdik.

Bu gün onlar ölkəmizin inkişafında çox vacib rol oynayırlar".

Prezidentin söylədikləri bu fikirləri yaradan səbəblərdən danışarkən qeyd etməliyik ki, o zaman suverenliyə yenicə qədəm qoymaqda olan xalqımızın yaşadığını Sovetlər birliyinə daxil olan heç bir xalqın yaşadığı ilə eyniləşdirmək mükün deyildir.

Bu dövrdə Azərbaycanın acı taleyi müxtəlif və qarşısıalınmaz təcavüz formaları ilə bağlı idi.

Erməni təcavüzkarları tərəfindən yollarda, ali məktəblərdə, metrolarda və hətta müsəlman dünyası üçün müqəddəs sayılan məscidlərdə terror törədir, digər tərəfdən azğınlaşmış düşmən ölkəmizə qarşı açıq təcavüz yolu, ölkəmizin şəhər və kəndlərini dağıdır, yandırırdı.

Fransa forumunda əsaslı faktlarla çıxış edən Azərbaycan Prezidenti xüsusi qeyd etmişdir ki, erməni təcavüzkarları nüfuzlu beynəlxalq təşkilatların çıxardığı qərarlara məhəl qoymadan mədəniyyət və sivilizasiyalar, xalqlar və dinlər arasındakı dialoqu qəbul etmədən, tolerantlıq və multikulturalist ənənəyə məhəl qoymadan açıq terrorizm və işğalçılıq mövqeyində dayanırlar.

Erməni təcavüzkarlığı və terrorizmi ilə bağlı tarixi faktları ortaya qoyan Azərbaycan Prezidenti, erməni vəhşiliyini belə səciyyələndirmişdir: "Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilmişdir. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilmişdir. O cümlədən, bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır.

Erməni işğalçıları tərəfindən 10 məscid yerlə-yeksan olunmuşdur.

Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz.

...Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğaldan, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik".

Prezidentin forumdakı çıxışında diqqəti cəlb edən cəhətlərdən biri də torpaqlarımıza əsassız iddia edən ermənilərin Qarabağın etimoloji mahiyyəti və toponimi ilə bağlıdır.

Prezident demişdir ki ermənilər bu əraziyə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəlinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin bütün şəhərlərinin və kəndlərinin bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb.

Bir sözlə, Azərbaycan uzaq tarixi keçmişdən başlayaraq xalqları, dövlətləri, mədəniyyət və sivilizasiyalararası dialoqu səsləyən, tolerantlığı qəbul edən multikulturalizmi özünün dövlət siyasəti formasına çevirən bir dövlətdir.

Bu baxımdan, İlham Əliyevin çıxışının son hissəsi hər bir dövlət başçısının, hər bir siyasətçinin və adi bir xalq nümayəndəsinin diqqətini cəlb edir. Onu çox düşünməyə vadar edir: "Buna görə də multikulturalizm bizim üçün bu gün müzakirə olunan, sadəcə, işləyib-işləməməsindən, həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq bir ideya deyil. Multikulturalizm bizim adət-ənənəmizdir.

Bu gün multukulturalizm təkcə ənənə deyil, bu, dövlət siyasətidir və bizim həyat tərzimizdir".

Azərbaycanın multikulturializm ənənəsinin beynəlxalq aləmdə yaratdığı pozitiv əks-sədasını nəzərə alaraq, Azərbaycan Prezidenti Prezident İdarəsi nəzdində Multikulturalizm Mərkəzi yaratmış və 2016-cı ili, multikulturalizm ili adlandırmışdır.

Vəzifə, dünya xalqlarına böyüklüyündən və kiçikliyindən, fərqli dini etiqad formalarından asılı olmayaraq, onları multikulturalizm və tolerantlıq yoluna, sivilizasiyalararası dialoqa, bir-birinin maddi-mənəvi sərvətlərindən bəhrələnməyə, sülhə, əmin-amanlığa çağırmaqdan ibarətdir.

Bu yol haqq yoludur, bu yol ədalət yoludur!

**Azadə QULİYEVA,**
**AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin elmi işçisi.**
**Həsən HÜSEYNOV,**
**İnstitutun dinşünaslıq və mədəniyyətin fəlsəfi məsələləri şöbəsinin aparıcı elmi işçisi.**